**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**OSMAN YUSİF OĞLU HACIYEV**

# ORTA SİNİF PROBLEMİ SOSİAL FƏLSƏFƏNİN OBYEKTİ KİMİ

**İxtisas: 7207.01 – Sosial fəlsəfə**

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** fəlsəfə elmləri doktoru, professor
**Həmid Rza oğlu İmanov**

**Elmi rəyçi:** fəlsəfə üzrə elmlər doktoru, professor
**Zeynəddin Camal oğlu Hacıyev**

**Rəsmi oppanentlər:** fəlsəfə üzrə elmlər doktoru
**Lalə Cəfər qızı Mövsümova**

fəlsəfə üzrə fəlsəfə doktoru
**Leyla Nəzir qızı Nəzirzadə**

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universiteti**

Müdafiə "_28___" __10_________ 2016-cı ildə saat _____ da AMEA Fəlsəfə və Hüquq İnstitutunun nəzdindəki D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid pr., 31. AMEA Fəlsəfə və Hüquq İnstitutu, konfrans zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "______" ____________________ 2016-cı ildə göndərilmişdir.

**Fəlsəfə və Hüquq İnstitutunun**
**nəzdindəki D.01.115 Dissertasiya**
**Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru:** **Sevinc Arif qızı HƏSƏNOVA**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Milli müstəqillik dövründə ölkəmizin ictimai həyatının bütün sferalarında baş verən köklü transformasiya prosesləri nəticəsində sosial strukturun keyfiyyətcə yeni məzmun kəsb etməsi, əhalinin ayrı-ayrı qrup və təbəqələrinin sosial vəziyyətindəki əsaslı dəyişikliklər orta sinif probleminin öyrənilməsi zərurətini yaratmışdır. Bu problemin aktuallığı həm də cəmiyyətdən irəli gələn sosial sifarişlə bağlıdır. Postsovet dövründə həyata keçirilən iqtisadi islahatlar yeni sosial qrupların və təbəqələrin yaranmasını şərtləndirmiş, əmlak differensiasiyasını daha da sürətləndirmiş, sosial qrupların mənafe müxtəlifliyini, onların həm də ziddiyyətliliyini formalaşdırmış, bütövlükdə sosial strukturun transformasiyasına gətirib çıxarmışdır. Beləliklə, bizim tədqiqat mövzumuzun aktuallığını şərtləndirən səbəblər aşağıdakılardır:

Hər şeydən əvvəl, cəmiyyətimizdə yeni sosial strukturun formalaşması və təkmilləşməsi sosial sabitlik və tərəqqinin əsasını təşkil edən orta sinfin sosial statusu, yeri və rolu ilə bilavasitə bağlıdır. İkinci, cəmiyyətin sosial strukturunda orta sinfin mövqeyi və rolu ilə bağlı vahid rəy yoxdur, bu barədə nəzəri diskussiyalar və mübahisələr hələ davam etməkdədir. Üçüncü, cəmiyyətimizdə orta sinif probleminin aktuallaşması həm də dövlətimizin özünü sosial yönümlü elan etməsi ilə bağlıdır. Bu mühüm sosial öhdəçiliyin hansı səviyyədə yerinə yetirilməsi eyni zamanda, orta sinfin inkişafı göstəricilərindən çox asılıdır. Bu baxımdan, Azərbaycan cəmiyyətində orta sinfin formalaşması və inkişafı ilə bağlı məsələlərin həlli prioritetlər sırasındadır. Ölkəmizdə həyata keçirilən islahatlar məhz orta sinfin kəmiyyət və keyfiyyətcə inkişafına yönəldilmişdir. Dördüncü, orta sinif çoxaspektli sosial fenomen kimi özündə iqtisadi, sosial, siyasi, fəlsəfi və mənəvi tərəfləri birləşdirdiyi üçün onun sosial-fəlsəfi təhlili, öz məzmunu və inkişaf yolu olan vahid sosial hadisə kimi nəzərdən keçirilməsi, sosial stratifikasiyanın bu vacib yarımsisteminin inkişaf tarixini, önəmli mahiyyət daşıyan əlamətlərini, strukturunu, funksiyalarını, subyektlərini, inkişaf tendensiyalarını adekvat müəyyənləşdirməyə imkan verir. Beşinci, orta sinif probleminin təhlilini gündəmə gətirən digər səbəb budur ki, ölkəmizdə bu sinfin formalaşması səviyyəsi, özünəməxsusluğu və inkişaf meylləri ilə bağlı suallar ətrafında nəzəri mübahisələr getməkdədir. Azərbaycan fəlsəfi elmində hələ "orta sinif" anlayışının tam, aydın ifadə olunmuş elmi-nəzəri izahı yoxdur. Tədqiqatçılar arasında orta sinfin sosial statusunu müəyyənləşdirməyin meyarları, bu sosial fenomenin cəmiyyətimizin sosial stratifikasiyasının inkişafında yeri və rolu ilə bağlı

vahid metodoloji yanaşmanın olmaması da onu tədqiq etməyin zəruriliyini şərtləndirir. Nəhayət, orta sinif probleminin tədqiqi zəruriliyi onun cəmiyyətdə yerinə yetirdiyi çoxsaylı funksiyalardan irəli gəlir. Ənənəvi olaraq tədqiqatçılar bu sinfi cəmiyyətin əsasını təşkil edən qüvvə, sosial-siyasi sabitliyin və davamlı inkişafın təminatçısı kimi dəyərləndirir. Onun digər funksiyası sosial gərginliyin aradan qaldırılması və normal sosial-psixoloji mühitin formalaşmasına güclü təsir göstərməsidir.

Bütün bunlar orta sinfin sosial potensialını aşkara çıxarmaq üçün onun funksional xarakterini öyrənmək tələbatını ortaya çıxarır. Sosial-fəlsəfi təhlil bu sosial fenomenin inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da öz adekvat rolunu oynaması üçün səmərəli şərait yaradılmasına kömək edir. Belə ki, sosial-fəlsəfi təhlil dövlət orqanlarının və bütövlükdə ictimaiyyətin səylərini Azərbaycan cəmiyyətində formalaşmaqda olan orta sinfin inkişafı naminə vahid istiqamətə yönəlməsinin nəzəri əsaslarını işləyib hazırlayır.

**Mövzunun işlənmə dərəcəsi**. Cəmiyyətin sosial strukturu və onun ayrı-ayrı elementləri, o cümlədən, orta sinfin öyrənilməsi ənənələri hələ antik dövrdə Platonun[1], Aristotelin[2] əsərlərində qoyulmuşdur. İlk dəfə olaraq orta sinfin dövlət üçün sabitləşdirici rolundan bəhs edən Aristotel bu sinfin üstünlük təşkil etdiyi dövlət formasını – politiyanı ən yaxşı quruluş hesab edirdi .

Orta əsrlərdə Qərbdə hakim olan sxolastik fikir və ideoloji qadağalar bütün sahələrdə olduğu kimi sosial-fəlsəfi fikirdə də durğunluq yaratmışdı. Qərbdən fərqli olaraq İslam Şərqində fəlsəfi fikir yüksək inkişaf etmişdir. Əbunəsr Fərabi, Saflıq qardaşları, İbn Sina, Bəhmənyar, Əbuhəfs Sührəvərdi, Eynəlqüzat Miyanəçi, Şihabəddin Sührəvərdi, Siracəddin Urməvi, Nəsrəddin Tusi, Əbuhamid Qəzali, İbn Rüşd, İbn Xaldun[3] kimi filosoflar öz təlimlərində cəmiyyətdə insanlararası münasibətlər, dövlət, siyasət, insanların müxtəlif təbəqələrə ayrılması, mülkiyyət münasibətləri, sosial bərabərlik, sosial ədalət məsələlərinə geniş yer vermiş, inkişafa nail olmağın əsasında ilk növbədə insanın mənəvi cəhətdən yüksəlişini qəbul edərək kamil insan - ideal dövlət prinsipindən çıxış etmişlər.

Yeni dövrdə sənaye inqilabı cəmiyyətdə xırda burjuaziyanın formalaşması ilə əlaqədar olaraq sosial-fəlsəfi fikirdə orta sinif problemini

---

[1]Platon. Dövlət. Bakı: Təbib, 1999, 358 s.

[2] Aristotel. Politika. Bakı: Bakı Universiteti nəşriyyatı, 1997, 280 s.

[3] İmanov H., Əhədov A. Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri. Bakı: Ülvi-Həyat, 210 s., Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: Şərq Qərb, 2006, 328 s., Məmmədov Z.C. Şərq fəlsəfəsi. Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 1999, 304 s.

yenidən aktuallaşdırdı. Həmin dövrün mütəfəkkirləri - A.Sen-Simon, O.Kont, C.Mill, A.Türqo, F.Kene[1] və b. orta sinfi daha çox iqtisadi kateqoriya kimi nəzərdən keçirmişlər. Cəmiyyətin sosial strukturunun nəzəri və ideoloji baxımdan izahı kimi götürülən "orta sinif" anlayışının elmi dövriyyəyə daxil edilməsi XIX əsrə təsadüf edir. Bu dövrdə orta sinif əsasən münaqişə nəzəriyyəsi çərçivəsində cəmiyyətdə ikinci dərəcəli və müvəqqəti sosial qrup kimi nəzərdən keçirilirdi. K.Marks və F.Engels [2] cəmiyyətin bu hissəsini vahid sosial birlik kimi deyil, müvəqqəti sosial təbəqələr çoxluğu kimi qəbul edirdi.

XIX əsrin ikinci yarısında orta sinfə dair elmi təsəvvürlərin genişlənməsində M.Veberin[3] böyük xidmətləri olmuşdur. K.Marksdan fərqli olaraq M.Veber orta sinfə resursların bölgüsündə iştirak edən sabit statuslu qrup kimi yanaşır, onun tərkibinə xırda sahibkarları, həmçinin, imtiyazlı iri mülkiyyətçilər ilə "lümpen proletariat" arasında yerləşən və ixtisası əmək bazarında kifayət qədər yüksək qiymətləndirilən digər təbəqələri aid edirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Qərb cəmiyyətinin sosial strukturunda baş verən ciddi dəyişikliklərlə əlaqədar olaraq ilk dəfə "yeni orta sinif" haqqında təsəvvürlər formalaşmağa başladı. E.Lederer, Y.Marşak, E.Bernşteyn, L.Uord, C.R.Mills[4] və digər tədqiqatçılar bu sosial fenomeni ətraflı təhlil etməyə cəhd göstərdilər.

Bu dövrdə sosial struktur, stratifikasiya və sosial mobillik münasibətlərinin tədqiqində amerikalı tədqiqatçı P.Sorokinin[5] mühüm xidmətləri olmuşdur.

Orta sinfin empirik tədqiqini XX əsrin 40-cı illərində Amerikalı L.Uorner[6] həyata keçirmiş, ilk dəfə olaraq cəmiyyətin iki və ya üç deyil, altı sinifdən ibarət sosial struktur modelini yaratmışdır.

XX əsrdə Qərbdə orta sinfin müxtəlif mövqelərdən tədqiqatı aparılmışdır. Onu H.Braverman, A.Qors, E.Qrant, E.O.Rayt, N.Pulansas,

---

[1] Кенэ Ф., Тюрго А.Р.Ж., Дюпон де Немур. Физиократы. Избранные экономические произведения. М.: Эксмо, 1200 с.
[2] Marks K., Engels F. Seçilmiş əsərləri, 3 cilddə, I cild., Bakı: Azərnəşr, 1978, 656 s.
[3] Вебер М. Избранные произведения / Сост., общ. Ред. Ю.Н.Давыдова. М.: Прогресс, 1990, 808 с.
[4] Lederer E., Marshak J. The New Middle Class. New York: Columbia University Press, 1937; Mills C. The New Middle Class, Life-Styles, Status Claims and Political Orientations. Houndmills-London: 1995;
[5] Сорокин П.А. Человек. Цивилизация. Общество. М.: Политиздат, 1992, 543 с.
[6] Warner W., Lunt P. Social Life of a Modern Community. New Haven: Yale University Press, 1941, 460 p.

E.Tompson neomarksizm mövqeyindən, B.Barber, K.Devis və V.Mur, R.Merton, T.Parsons, L.Uorner funksionalizm, T.Bottomor, E.Giddens, C.Qoldtorp, R.Darendorf, R.Krompton, D.Lokvud, C.R.Mills, U.Ransimen[1] isə neoveberçilik mövqeyindən tədqiq etmişlər.

Qeyd etmək lazımdır ki, keçmiş SSRİ-də orta sinfə dair tədqiqatlar daha çox ideoloji məna kəsb etdiyi üçün məhdud xarakter daşıyır və iqtisadi determinizmə əsaslanırdı. Sovet tədqiqatçıları L.Y.Averyanov, N.A.Aitov, R.T.Nasibullin, V.S.Semyonov, M.N.Rutkeviç, S.L.Senyavskiy, L.A.Belyayeva, T.V.Naumova və V.N.Pimenova, L.A.Qordon, E.V.Klopov və V.V.Komarovski, R.Kosolapov, F.R.Filippov, O.İ.Şkaratan[2] və başqaları öz əsərlərini əsasən bu istiqamətdə yazmışlar.

---

[1] Braverman H. Labor and Monopoly Capital: The Degradation of Work in the Twentieth Century. New York: Monthly Review Press, 1974, 465 p.; Gorz A. Farewell to the Working Class. London: Pluto Press, 1982, 288 p.; Райт Э., Костелло С., Хейген Д., Спрэйг Дж. Классовая структура американского общества // Социологические исследования, 1994, № 1, с.152-163; Wright E. Classes. London: Verso Books, 1985, 344 p.; Барбер Б. Структура социальной стратификации и тенденции социальной мобильности // Американская социология. Перспективы. Проблемы. Методы. М.: 1972, с. 110-121; Дэвис К., Мур У. Некоторые принципы стратификации // Структурно-функциональный анализ в современной социологии, М.: Наука, 1968, с.45-61; Мертон Р.К. Социальная структура и аномия // Социологические исследование, 1992, № 4, с.91-96; Парсонс Т. Система современных обществ / Пер с англ. Л.А. Седова и А.Д. Ковалева. / Под ред. М.С. Ковалевой. М.: Аспект Пресс, 1998, 270 с.; Уорнер Л. Социальный класс и социальная структура // Рубеж: Альманах социальных исследований, 1997, № 10-11, с. 42-57; Bottomore T. Classes in Modern Society. London: George Allen and Unwin Ltd, 1965, 202 p.; Гидденс Э. Стратификация и классовая структура // Социологические исследования, 1992, № 9, с.112-123; Giddens A. Sociology. Cambridge: Polity Press, 1989, 314 p.; Goldthorpe J. On the Service Class, İts Formation and Future // Social Class and Division of Labour. Cambridge, 1982, p. 162-185; Дарендорф Р. Элементы теории социального конфликта // Социологические исследования, 1994, № 5, с.142-146; Crompton R. Class and Stratification: An Introduction in Current Debates. Cambridge: Polity Press, 1998; Lockwood D. The Black Coated Worker: A Study in Class Consciousness (2d ed.). Oxford: Clarendon, 1989; Mills C. White Collar: The American Middle Classes. New York: 1951, 412 p.; Runciman W. How Many Classes Are There in Contemporary British Society? // Sociology. v.24, № 3, p. 377-396

[2] Аверянов Л.Я. Проблемы социальной структуры социалистического общества // Научный коммунизм, 1977, № 3, с.139-145; Аитов Н.А., Насибуллин Р.Т. Профессиональная мобильность интеллигенции // Социологические исследования, 1980, № 2, с.106-111; Семенев В.С. Капитализм и классы. М.: Наука, 1969, 399 с.; Руткевич М.Н. Интеллигенция в развитом социалистическом обществе. М.: Политиздат, 1977, 96 с.; Сенявский С.Л. Изменения в социальной структуре советского общества (1938-1970). М.: Мысль, 1973, 447 с.; Беляева Л.А., Наумова Т.В., Пименова В.Н. Проблемы развития интеллигенции в зрелом социалистическом

Müasir dövrdə cəmiyyətin postindustrial inkişaf mərhələsinə keçidi ilə əlaqədar orta sinif mövzusu yenidən aktuallaşır. Bu dövrdə həmin problem D.Bell, C.Helbreyt, Z.Bjezinski, E.Rayt, S.Kostello, D.Heyqen və C.Spreyq, İ.Kristal, M.Kastelsin[1] və digərlərinin işləyib hazırladığı "yeni industrial cəmiyyət", "texnotron cəmiyyət", "informasiya cəmiyyəti", "postindustrial cəmiyyət" nəzəriyyələrində öz əksini tapmışdır.

Postsovet məkanda orta sinif mövzusu daha çox Rusiyada araşdırılmışdır. İdeoloji qadağaların aradan qaldırılması cəmiyyətin sosial strukturuna yeni sosial-fəlsəfi baxımdan yanaşmağa imkan verdiyi üçün orta sinif problemi müxtəlif istiqamətlərdə tədqiq olunmağa başladı. Nəticədə, T.İ.Zaslavskaya, L.A.Belyayeva, Z.T.Qolenkova, V.V.Radayev, O.İ.Şkaratan[2] neoveberçilik, N.E.Tixonova, Q.Q.Diligenskiy, E.M.Avraamova neofunksionalist, V.İ.İlin strukturalist, T.R.Kalimullin[3] isə

---

обществе // Вопросы философии, 1978, № 12, с.160-163; Гордон Л.А., Клопов Э.В., Комаровский В.В. Современные тенденции динамики социальной структуры развитого социалистического общества (социально-культурные сдвиги и рабочий класс) // Рабочий класс и современный мир, 1981, № 3, с.19-24; Косолапов Р. Проблемы анализа социальной структуры советского общества // Проблемы мира и социализма, 1973, № 5, с.22-27; Филиппов Ф.Р. Исследование социальной структуры советского общества // Социологические исследование, 1981, № 3, с.7-16; Шкаратан О.И. Проблемы социальной структуры рабочего класса. М.: Мысль, 1970, 400 с.

[1] Белл Д. Грядущее постиндустриальное общество. Опыт социального прогнозирования. М.: Academia, 1999, 956 с.; Гэлбрейт Дж.К. Новое индустриальное общество. М.: Прогресс, 1969, 480 с.; Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. М.: Международные отношения, 1999, 256 с. Райт Э., Костелло С., Хейген Д., Спрэйг Дж. Классовая структура американского общества // Социологические исследования, 1994, № 1, с.152-163; Кастельс М. Информационная эпоха: экономика, общество и культура. М.: ГУ ВШЭ, 2000, 608 с.

[2] Заславская Т.И. Социоструктурный аспект трансформации российского общества // Социологические исследование, 2001, № 8, с.3-12; Беляева Л.А. В поисках среднего класса // Социологические исследования, 1999, № 7, с.60-76; Голенкова З.Т. Тенденции изменения социальной структуры Российского общества в период реформ // Общества и экономика, 2002, № 12, с.15-25; Радаев В.В., Шкаратан О.И. Социальная стратификация. М.: Аспект Пресс, 1996, 318 с.; Шкаратан О.И.

[3] Тихонова Н.Е. Российский средний класс: особенности мировоззрения и факторы социальной мобильности // Социологические исследование, 2000, № 3, с.13-23; Дилигенский Г.Г. Люди среднего класса. М.: Ин-т Фонда «Общественное мнение», 2002, 286 с.; Авраамова Е.М., Александрова О.А., Логинов Д.М. Российский средний класс в глобализирующемся мире. Россия в глобализирующемся мире: политико-экономические очерки / Отв.ред академик Львов Д.С. М.: Наука, 2004, 740 с.; Ильин В.И. Социальная стратификация. Сыктывкар: 1991, 342 с.; Калимуллин Т.Р. Формирование среднего класса в российском обществе (теоретико-методологический

neomarksist mövqeyindən çoxlu əsərlər yazmışlar. Ümumilikdə götürdükdə, rus müəllifləri arasında orta sinfin müəyyənləşdirilməsinin metodologiyasına dair iki əsas yanaşma formalaşmışdır. Relyativist mövqenin nümayəndələri - V.İ.Dobrenkov, A.İ.Kravçenko, A.Q.Zdravomıslov[1] orta sinfin milli xüsusiyyətlərindən çıxış edir və hər bir cəmiyyətin özünəməxsus orta sinif modelinin mövcudluğunu əsaslandırmağa çalışırlar. Normativ yanaşma tərəfdarları - V.İ.Bakştanovskiy və Y.V.Soqomonov, T.İ.Zaslavskaya, V.İ.Pantin[2] isə bütün cəmiyyətlər üçün ümumi orta sinif əlamətlərinin müəyyənləşdirilməsinin vacibliyini göstərirlər. Bunlarla yanaşı, Rusiyada L.A.Xaxulina, Y.A.Levada, R.V.Rıvkina, M.V.Gerasimova, E.İ.Qromova və K.İ.Şparo, O.A.Yudina[3] tərəfindən orta sinfin geniş empirik tədqiqi həyata keçirilmişdir.

Rusiyada orta sinif problemi həmçinin, namizədlik və doktorluq dissertasiya işləri səviyyəsində də araşdırılmışdır. Bu işlərdə problemin ayrı-ayrı aspektləri fəlsəfi, iqtisadi, sosioloji və siyasi səviyyələrdə öyrənilmişdir. Məsələn, İ.N.Beloqrud, V.V.Farniyev orta sinif problemini fəlsəfi səviyyədə, O.N.Leskina problemi iqtisadi, V.V.Lunyev, V.İ.Kauçkanov, S.V.Marayeva, A.L.Bodrov sosioloji, O.A.Qonçarova[4] isə siyasi aspektdən tədqiq etmişlər.

---

анализ): Автореф. дис. … канд. соц. наук. Казанский государственный университет, Казань, 2000, 24 с.

[1] Кравченко А.И. Социология. М.: ТК Велби, 2005, 536 с.; Здравомыслов Г.А. Российский средний класс – проблема границ и численности // Социологические исследование, 2001, № 5, с.76-85

[2] Бакштановский В.И., Согомонов Ю.В. Этос среднего класса: нормативная модель и отечественные реалии. Тюмень: 2000, 230 с.; Заславская Т.И. О социальном механизме посткоммунистических преобразований в России // Социологические исследование, 2002, № 8, с.3-17; Пантин В.И. Средние слои в современной России: политическое поведение и ориентации. Автореф. дисс. …канд. полит. наук. М., 1995, 26 с.

[3] Хахулина Л. Субъективный средний класс: доходы, материальное положение, ценностные ориентации // Экономические и социальные перемены: мониторинг общественного мнения, 1999, № 2, с.54-81; Левада Ю.А. Средний человек: фикция или реальность? // Экономические и социальные перемены, 1997, № 2, с.7-12; Рывкина Р.В. Эксперты о среднем классе // Экономические и социальные перемены: мониторинг общественного мнения. Информационный бюллетен, ВЦИОМ, 1993, № 10, 34 с.; Юдина О.А. Численность и демографические особенности средних слоев российского общества // Социологические исследование, 2008, № 10, с. 96-103

[4] Белогруд И.Н. Средний класс как предмет социально- философского анализа: Дис. … докт.филос.наук. Москва, 2005, 326с.; Фарниев В.В. Процесс становления и развития российского среднего класса: социально-философский анализ: Дис. …

Azərbaycanda sosial struktur və sinfi münasibətlərin öyrənilməsinə hələ Sovet dövründən başlanmışdır. XX əsrin 60-70-ci illərində Sovet cəmiyyətinin sosial strukturunda baş verən dəyişikliklər bunu daha da aktuallaşdırmışdır. Bu dövrdə H.R.İmanov, C.T.Əhmədli və A.A.Rəhimov, Z.C.Hacıyev, sonrakı dövrdə E.R.İsmayılovun[1] əsərləri Azərbaycan SSR-nin sosial strukturunun ümumi problemlərinin öyrənilməsi baxımından mühüm maraq doğurur. Lakin həmin dövrün sosial-fəlsəfi fikrində marksist ənənə hakim olduğundan, orta sinif problematikasına geniş diqqət yetirilməmişdir.

Milli müstəqillik əldə olunduqdan sonra yeni iqtisadi sistemə keçid və cəmiyyətin bütün sferalarında baş verən əsaslı dəyişikliklərlə bağlı olaraq, cəmiyyətin sosial strukturu və sosial stratifikasiyası daha geniş öyrənilməyə başlandı. Problemin ayrı-ayrı tərəflərinə fəlsəfi, sosioloji və iqtisadi ədəbiyyatda müxtəlif elmi tədqiqat xarakterli əsərlər həsr edilmişdir. Bu dövrdə V.M.Cəfərova, R.M.Həsənov, R.Ə.Mehdiyev, İ.R.Məmmədzadə, R.O.Məmmədova, T.A.Quliyev, Ə.F.Abbasov, İ.S.Əsgərov, F.Q.Vahidov, T.B.Ağayev, M.Ə.Əfəndiyev, A.M.Şirinov, K.A.Əzimov, Ə.Əlirzayev, E.Eminov, R.C.Əzimova, N.M.Məmmədov[2] və

---

канд.филос.наук. Владикавказ, 2002, 134 с.; Лескина О.Н. Средний класс как фактор устойчивости социально-экономической системы: Дис. … канд.экон.наук. Тамбов, 2005, 184 с.; Лунев В.В. Средние слои и средний класс: соотношение и тенденции развития: Дис. …канд.соц.наук. Красноярск, 2003,182 с.; Каучканов В.И. Становление среднего класса в постсоветской России: Дис. … канд.соц.наук. Саранск, 2006, 167 с.; Мареева С.В. Средний класс в современном российском обществе: специфика становления: Дис. … канд.соц.наук. Москва, 2009,191с.; Бодров А.Л. Российский средний класс: проблемы формирования, развития и изучения: Дис. … канд. соц.наук. Нижний Новгород, 2000, 166 с.; Гончарова О.А. Места и роль среднего класса в формировании гражданского общества в России: Дис. … канд.полит.наук. Москва, 2005, 177 с.

[1] Иманов Г.Р. Социально-классовая структура развитого социализма. Баку: Азернешр, 1985, 161 с.; Ахмедли Дж.Т., Рагимов А. А. Личность и труд: опыт конкретно - социологических исследований. Баку: Азернешр, 1981, 167 с.; Hacıyev Z.C. Elmi-texniki tərəqqi və sosial dəyişikliklər. Bakı: Bilik, 1976, 150 s.; Исмаилов Э.Р. Социальная структура Азербайджанской ССР. Баку: Азернешр, 1990, 150 с.

[2] Cəfərova V.M. Bazar iqtisadiyyatına keçid: ziddiyyətlər və onların həlli yolları. Bakı: Azərbaycan, 1996, 98 s.; Гасанов Р.М. Формирование гражданского общества в условиях трансформации. Баку: Kitab aləmi, 2003, 271 s.; Mehdiyev R.Ə. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi. Azərbaycan qəz., Bakı, 2011, 19 may.; Məmmədzadə İ.R. Azərbaycansayağı modernləşmə haqqında // Azərbaycan bu gün və sabah, Bakı, 2008, № 2, s.6-9; Мамедова Р.О. Основные тенденции изменения социальной структуры Азербайджанской Республики (конец 80-х – 90-е годы). Дис. …канд. филос. наук. Баку.: 2000, 126 с.; Кулиев Т.А. Регулируемая рыночная

başqa tədqiqatçıların əsərlərində Azərbaycan cəmiyyətinin sosial strukturu və onun inkişafının öyrənilməsi istiqamətində orta sinfin və vətəndaş cəmiyyətinin formalaşması problemləri bu və ya digər dərəcədə nəzərdən keçirilmişdir. Lakin qeyd etmək lazımdır ki, indiyədək cəmiyyətimizdə orta sinif problemi sosial-fəlsəfi aspektdən xüsusi tədqiqat obyekti kimi öyrənilməmişdir. Problemin kompleks şəkildə sosial-fəlsəfi təhlili yalnız hazırki tədqiqat işində həyata keçirilmişdir. Buna baxmayaraq, ayrı-ayrı Azərbaycan müəlliflərinin əsərlərində orta sinif probleminin müxtəlif aspektlərinin təhlilinə rast gəlmək mümkündür.

Mövcud fəlsəfi, sosioloji və iqtisadi ədəbiyyatın təhlili sübut edir ki, Azərbaycanda orta sinfin tədqiqinə həsr olunmuş əsərlər azlıq təşkil edir, xüsusilə də, bu problemin kompleks sosial-fəlsəfi araşdırılmasına böyük ehtiyac vardır. Qeyd olunan mülahizələrə əsaslanaraq biz dissertasiyamızı orta sinfin sosial-fəlsəfi səpkidə tədqiqinə həsr etmişik.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi orta sinfi vahid sosial fenomen, bütöv bir tam kimi sosial-fəlsəfi səpkidə təhlil etməkdir. Qarşıya qoyulan bu məqsəd aşağıdakı vəzifələrin reallaşdırılması yolu ilə həyata keçirilir:

- cəmiyyətin müasir sosial strukturu və stratifikasiyasının, sinfi münasibətlərin mahiyyəti və xüsusiyyətlərinin öyrənilməsi əsasında orta sinif anlayışının məzmununun açıqlanması;
- orta sinfin formalaşması prosesinin özünəməxsusluğunun, kəmiyyət və keyfiyyət göstəricilərinin araşdırılması;
- orta sinfə metodoloji yanaşmaların müqayisəli təhlili əsasında onun müəyyənləşdirilməsinin obyektiv (iqtisadi, siyasi, peşə) və subyektiv (sosial özünüidentifikasiya) meyarlarının aşkara çıxarılması;
- cəmiyyətin müxtəlif sferalarında (iqtisadi, sosial, siyasi, mənəvi) orta sinfin oynadığı rolun və funksiyaların tədqiqi;

---

экономика. Баку: Элм, 2000, 449 с.; Abbasov Ə.F., Əsgərov İ.S. Keçid dövrü və yeni iqtisadi təfəkkür. Bakı: Nafta Press, 2001, 142 s.; Hacıyev Z.C. Keçid dövrü və sosial dəyərlər // BDU-nun xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2003, № 1, s.125-133; Vahidov F., Ağayev T. Sosiologiya, Bakı: Təknur, 2008, 333 s.; Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, 514 s.; Əzimov K.A., Həsənov R.M. Sosiologiya. Bakı: Adiloğlu, 2003, 312 s.; Алирзаев А., Алирзаев Э. Социально – экономические проблемы послекризисной ситуации в Азербайджане // Общество и экономика, 2010, № 6, с.81-87; Эминов Э. Структурные проблемы экономики Азербайджана // Общество и экономика, 2009, № 8-9, с.133-137; Азимова Р.Дж. Средний класс в социальной стратификации общества переходного периода. Баку: Элм, 2006, 103 с.; Məmmədov N.M. Azərbaycanda orta təbəqənin formalaşması problemləri. Bakı: Azərnəşr, 2010, 736 s.

- orta sinfin formalaşması prosesinin kompleks öyrənilməsi, burada təkcə iqtisadi əlamətlərin deyil, həmçinin, sosial, siyasi münasibətlərin də ön plana çəkilməsi;

- orta sinfin strukturunda "köhnə orta sinif" və "yeni orta sinif" anlayışlarının fərqləndirilməsi və təhlili;

- keçid dövründə Azərbaycan cəmiyyətinin sosial strukturunda baş verən yeni cəhətlərin və meyllərin aşkarlanması;

- Azərbaycanda orta sinfin təşəkkülü xüsusiyyətləri və inkişaf tendensiyalarının müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın məqsəd və vəzifələrinə uyğun olaraq tədqiqatın obyekti orta sinfin sosial-fəlsəfi aspektdə araşdırılmasından ibarətdir. Tədqiqatın predmetini isə cəmiyyətin müasir sosial stratifikasiyasında orta sinfin yerinin öyrənilməsi, həmçinin, Azərbaycanda orta sinfin formalaşması prosesinin təhlili təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Dissertasiya işinin metodoloji əsasını ümumfəlsəfi və sosial-fəlsəfi metodlar təşkil edir. Tədqiqatın gedişində dialektik və sistemli-struktur təhlil metodları, alınan nəticələrin ümumiləşdirilməsində abstraktdan konkretə yüksəlmə metodu, müxtəlif cəmiyyətlərdə orta sinfin özünəməxsus xüsusiyyətlərinin aşkar olunmasında isə müqayisəli-təhlil metodundan istifadə edilmişdir. Obyektivlik, izahetmə, təsnifat, ümumi qarşılıqlı əlaqə prinsipləri işin metodoloji əsasının mühüm tərkib hissəsini təşkil edir. Dissertasiya işinin nəzəri əsasını klassik filosofların (K.Marks, M.Veber və b.), Azərbaycan alimlərinin (R.Ə.Mehdiyev, İ.R.Məmmədzadə, R.C.Əzimova, Z.C.Hacıyev, N.M.Məmmədov və b.), həmçinin, Rusiya (T.İ.Zaslavskaya, L.A.Belyayeva, Q.Q.Diligenski və b.) və Qərb (E.Giddens, T.Parsons, E.Dürkheym, P.Sorokin və b.) sosial-fəlsəfi fikir nümayəndələrinin əsərlərində irəli sürülən müddəalar təşkil edir.

**Tədqiqatın empirik** bazasını cəmiyyətin sosial strukturunun təhlilinə həsr olunmuş materialların nəticələri, orta sinfin kəmiyyət göstəricilərinə dair ölkəmizdə və xaricdə dərc olunmuş faktoloji materiallar təşkil edir. Burada Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu və Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının konkret sosioloji tədqiqatları, Dövlət Proqramlarının materialları, Azərbaycan Respublikasının normativ və hüquqi aktları, Rusiya və Qərb mütəxəssislərinin konkret tədqiqatları, müxtəlif elmi-

praktik konfransların materialları, analitik hesabatlar, dövri mətbuat materialları, internet resurslardan[1] geniş istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** problemin qoyuluşu, tədqiqatın predmetinin, məqsəd və vəzifələrinin xarakteri ilə şərtlənir. Qeyd etmək lazımdır ki, orta sinif problemi Azərbaycanda ilk olaraq dissertasiya mövzusu səviyyəsində tədqiq olunur. Dissertasiyanın elmi yeniliyi həm də orta sinfin çoxaspektli sosial fenomen kimi tədqiqində kompleks sosial-fəlsəfi metodologiyanın tətbiqindən ibarətdir. Tədqiqatın elmi yeniliyi qismində aşağıdakı nəzəri müddəalar təqdim edilir:

- orta sinfi vahid sosial birlik kimi xarakterizə edən əlamətlər formulə edilmiş, onun yerinə yetirdiyi funksiyalar təhlil olunmuşdur;
- orta sinfin öyrənilməsilə bağlı əsas sosial-fəlsəfi yanaşmalar – bütün cəmiyyətlər üçün eyni standartları qəbul edən normativ və hər bir cəmiyyət tipi üçün xüsusi əlamətləri qəbul edən relyativist yanaşmalar müəyyənləşdirilmiş və təhlil edilmişdir;
- orta sinif nümayəndələrinin dəyərlər oriyentasiyası nəzərdən keçirilmişdir;
- Azərbaycan cəmiyyətində orta sinfin formalaşması problemləri araşdırılmışdır, burada orta sinfin inkişafının üç mərhələdən keçdiyi

[1] Azərbaycanın statistik göstəriciləri http://www.azstat.org/publications/yearbook/SYA2012/.; Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafina Yardım Assosiasiyası. İlham Əliyevin Prezidentliyinin 365 günü və vətəndaş cəmiyyəti. Sosioloji tədqiqat. Bakı: Polygraphic production, 2004, 490 s.; Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Azərbaycan qəz., Bakı, 2004, 12 fevral, s.1-3; Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər). Azərbaycan qəz., Bakı, 2009, 15 aprel, s. 1-3; Azərbaycan Respublikasının Konstitusiyası Bakı: Qanun, 2009, 68 s.; Герасимова М.В., Громова Е.И., Шпаро К.И. Автопортрет среднего класса в Санкт-Петербурге // Журнал социологии и социальной антропологии, 2005, № 2, с.167-178; Уорнер Л. Социальный класс и социальная структура // Рубеж: Альманах социальных исследований, 1997, № 10-11, с. 42-57; Reissman L. Inequality in American Society. Social Stratification. Scott, Foresman and Company. Glenview (Ill.) – Brighton (U.K.), 1973; Bernard J. Class Organisation in an Era of Abundance. A New Principle of Class Organisation / Transactions of the Third World Congress of Sociology, London, 1956, p.31; Динамика социальной структуры и трансформация общественного сознания (круглый стол) // Социологические исследования, 1998, №12, с.3-45; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. Respublika qəz., Bakı, 2007, 23 yanvar, s.2-6; “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası. http://www.president.az/files/future_az.pdf, 39 s.

müəyyənləşdirilmişdir: 1. XIX əsrin sonu – XX əsrin əvvəllərində meydana gələn bazar iqtisadi modeli; 2. Sovet dövründə mövcud olan qeyri-bazar iqtisadi modeli; 3. XX əsrin sonlarında yenidən formalaşan bazar iqtisadi modeli;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin gedişində mövzuya dair fəlsəfi, sosial, iqtisadi, siyasi ədəbiyyatın təhlili nəticəsində orta sinfin öyrənilməsinə dair kompleks əlamətlər müəyyənləşdirilmiş, onun cəmiyyətdə yerinə yetirdiyi funksiyalar aydınlaşdırılmışdır. Bu, orta sinfin gələcək tədqiqatları üçün metodoloji əsas və baza rolunu oynaya bilər. Əldə olunmuş nəticələrdən, həmçinin, gələcək stratifikasion, sosio-mədəni tədqiqatlarda, orta sinfin inkişaf dinamikasının öyrənilməsində istifadə oluna bilər. Dissertasiya işində əldə olunmuş nəticə və müddəalardan sosial fəlsəfə, sosiologiya, politologiyaya aid mühazirələrdə, nəzəri və praktiki məşğələlərdə istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin fəlsəfə kafedrasında yerinə yetirilmişdir. Əldə edilən elmi nəticələr, dissertasiyanın əsas məzmunu, tədqiqat konsepsiyası elmi jurnallarda, beynəlxalq konfranslardakı çıxışlarda, həmçinin, xarici ölkə jurnallarında nəşr edilmişdir.

**Tədqiqatın strukturu.** Dissertasiyanın məqsəd və vəzifələrindən çıxış edərək işin strukturu aşağıdakı kimi müəyyənləşdirilmişdir: giriş, səkkiz yarımfəsildən ibarət üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısı.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Elmi işin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, elmi-nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir, aprobasiyası və strukturu nəzərdən keçirilir.

Dissertasiyanın **"Cəmiyyətin sosial strukturu və sosial stratifikasiyasının təhlilinin fəlsəfi-nəzəri əsasları"** adlanan birinci fəsli iki yarımfəsili əhatə edir. Bu fəsildə tədqiqatın məqsəd və vəzifələrindən çıxış edərək, cəmiyyətdə sinif və sinfi münasibətlərin geniş təhlili aparılır, sosial strukturun empirik və nəzəri modeli anlayışları fərqləndirilir. Burada sosial-fəlsəfi təhlil baxımından orta sinfin öyrənilməsinin kateqorial aparatı formalaşdırılır və sosial struktur, sosial fəaliyyət, sosial məkan, sosial mənafelər, sinif, sosial stratifikasiya, təbəqə, mülkiyyət anlayışları geniş təhlil olunur. Bu fəsildə həmçinin, sosial struktura dair konsepsiyalar

araşdırılır, marksizmin sosial-sinfi struktur təlimi və müasir Qərb stratifikasiya nəzəriyyələri müqayisəli şəkildə təqdim olunur. Təhlil əsasında müasir dövrdə sosial strukturun yeni istiqamətdə inkişaf etməsi qənaətinə gəlinir.

Bu fəslin **"Cəmiyyətin sosial strukturu anlayışı"** adlanan birinci yarımfəslində qeyd olunur ki, cəmiyyət yekcins kütlə olmayıb mürəkkəb ierarxik quruluşa malik sistemdir. Onun tərkibində müxtəlif sabit və müvəqqəti sosial birlik formaları - siniflər, təbəqələr, irqi, etnik, dini, professional və başqa qruplar mövcud olur. Onlar ümümilikdə cəmiyyətin mürəkkəb sosial strukturunu yaradırlar**.** Bu mənada deyə bilərik ki, sosial struktur müxtəlif fərdlər, sosial birliklər və sosial qruplar arasında qanunauyğun qarşılıqlı münasibətlərin sistemidir. Bu halda cəmiyyətin sosial strukturunun əsas elementlərini obyektiv surətdə qərarlaşan, müəyyən sosial statusa malik olan və sosial funksiyalar yerinə yetirən fərdlər və onların birləşdikləri qruplar, sosial-ərazi, etnik, demoqrafik və b. birliklər təşkil edir. Onların qarşılıqlı əlaqə və münasibətləri statik deyil, dəyişkən və dinamik xarakter daşıyır. Bu cəhət onların öz tələbatının ödənilməsi və mənafeyinin reallaşması naminə həyata keçirdiyi qarşılıqlı təsirə əsaslanan fəaliyyətində təzahür edir. Sosial fəlsəfi təhlil orta sinfin öyrənilməsinin kateqorial-anlayış aparatını, metodologiyasını formalaşdırır. Burada "sosial struktur", "sosial fəaliyyət", "sosial məkan", "sosial mənafelər", "sinif", "sosial stratifikasiya", "təbəqə", "mülkiyyət" kimi anlayışlar əsas yer tutur.

Birinci fəslin **"Sosial struktur və sosial stratifikasiyaya dair nəzəriyyələr"** adlanan ikinci yarımfəslində qeyd olunur ki, sosial fəlsəfədə cəmiyyətin sosial strukturunu, ayrı-ayrı siniflərin, sosial qrup və təbəqələrin meydana gəlmə səbəblərini müxtəlif şəkildə izah edən nəzəriyyələr mövcuddur. Bu nəzəriyyələr daha çox əsas sinifyaradıcı əlamətlərin müəyyənləşdirilməsinə dair baxışlarında bir–birlərindən fərqlənir. Məsələn, marksizm nəzəriyyəsi çərçivəsində bərabərsizlik siniflərin maddi və sosial resurslar uğrunda mübarizəsi nəticəsi kimi nəzərdən keçirilir. Bu nəzəriyyəyə görə siniflər cəmiyyətin sosial strukturunun nüvəsini - əsasını təşkil edir. Marksizm cəmiyyətdə sosial münasibətlərin əsasını məhz sinfi münasibətlərdə görürdü. Düzdür siniflərin mövcudluğu K.Marksa qədərki dövrdə - XIX əsrin əvvəllərində elmdə qeyd olunmuşdu. Fransız tarixçiləri F.Gizo, O.Tyeri, ingilis və fransız mütəfəkkirləri K.Sen-Simon, F.Kene, A.R.Türqo, A.Smit, D.Rikardo öz əsərlərində bu anlayışdan geniş istifadə etmişlər. Lakin siniflər haqqında təlimin inkişaf etdirilməsi marksizmlə bağlıdır. Bu yarımfəsildə həmçinin, sosial stratifikasiya nəzəriyyəsi təhlil

olunur və göstərilir ki, bu nəzəriyyə marksizmin sosial sinfi struktur təliminin inkarıdır. Təsadüfi deyildir ki, 1966-cı ildə Minskdə "Sovet cəmiyyətinin sosial strukturunun dəyişilməsi" mövzusunda keçirilən konfransda "sosial stratifikasiya" anlayışı cəmiyyətin quruluşuna dair marksizmin sxeminə uyğun gəlmədiyinə görə qəbul olunmamışdır[1]. Sosial stratifikasiyanın görkəmli araşdırıcısı Rusiya mənşəli Amerikalı sosioloq P.Sorokinin fikrincə, "sosial stratifikasiya mövcud insanlar məcmusunu (əhalini) ierarxiya dərəcəsində siniflərə parçalamaq deməkdir. Stratifikasiya yüksək və aşağı siniflərin mövcudluğunda öz əksini tapır. Onun mahiyyət və əsasını hüquq və imtiyazların, məsuliyyət və öhdəliklərin qeyri-bərabər bölgüsü təşkil edir"[2]. Qeyd edək ki, marksizm cəmiyyətin sosial strukturunu araşdırarkən yalnız bir vacib meyara – istehsal vasitələri üzərində mülkiyyət münasibətlərinə əsaslanırdı. Buna görə də marksist nəzəriyyə cəmiyyətdə yalnız iki – mülkiyyətçilər (quldarlar, feodallar, burjuaziya) və istehsal vasitələri üzərində mülkiyyətdən məhrum olunmuş sinifləri (qullar, proletariat, həmçinin, mülkiyyət üzərində məhdud hüquqa malik kəndlilər) fərqləndirirdi. Lakin XX əsrin əvvəllərində cəmiyyətin sosial strukturuna belə yanaşmanın məhdudluğu üzə çıxdı. Sosial stratifikasiya nəzəriyyəsi göstərdi ki, nəinki təkcə gəlirlərin miqdarı və mülkiyyət münasibətlərinin daxil olduğu iqtisadi meyar, eləcə də, müəyyən siyasi elitaya məxsusluq, sosial nüfuz, qohumluq əlaqələri və s. əlamətlər fərdin və ya qrupun sosial ierarxiyada yerini müəyyənləşdirir.

Dissertasiyanın ikinci fəsli **"Orta sinif, onun sosial sistemdə yeri, rolu və funksiyaları"** adlanır. Bu fəsildə orta sinif anlayışının mahiyyəti açıqlanır, bu sinfə vahid sosial birlik kimi yanaşılır, orta sinfin sosial tərkibini təşkil edən qrup və təbəqələr müəyyənləşdirilir. Burada orta sinfin müasir sosial stratifikasiya sistemində yeri, rolu və funksiyaları araşdırılır, bu sinif cəmiyyətdə inkişafa stimul verən əsas qüvvə, azad bazar iqtisadiyyatının və siyasi demokratiyanın sosial bazası olaraq nəzərdən keçirilir. Bu fəsildə eyni zamanda, orta sinfin sosial-fəlsəfi aspektdən təhlili üçün özündə normativ və relyativist üsulları birləşdirən ümumi metodologiya qəbul olunur. Orta sinif probleminə dair sosial-fəlsəfi nəzəriyyələr də məhz dissertasiyanın ikinci fəslində araşdırılır.

Bu fəslin **"Orta sinif anlayışı və onun əsas meyarları"** adlanan ilk yarımfəsilində göstərilir ki, orta sinif özündə müxtəlif iqtisadi və siyasi

---

[1]Голенкова З.Т. Социальная структура общества: в поиске адекватных ответов // Социологические исследования, 2008, №7, с.75-76

[2] Сорокин П.А. Человек. Цивилизация. Общество. М.: Политиздат, 1992, с. 302

maraqları birləşdirən mürəkkəb struktura malik sosial birlikdir. Onu səciyyələndirmək üçün istər elmi ədəbiyyatda, istərsə də dövri mətbuatda "cəmiyyətin orta hissəsi", "orta istehlak təbəqəsi", "orta sinif", "orta təbəqə", "orta siniflər" və ya "orta təbəqələr" kimi müxtəlif anlayışlardan istifadə olunur. Orta sinif anlayışının məzmunca "təbəqə"yə nisbətən geniş olması və özündə müxtəlif sosial təbəqələri (məs; ziyalılardan tutmuş sahibkarlara qədər) əhatə etməsi də onun qəbul olunmasını zəruri edir.

Bu yarımfəsildə qeyd olunur ki, orta sinif probleminin sosial-fəlsəfi aspektdən təhlili ümumi metodologiyanın işlənməsini zəruri edir. Fikrimizcə, bu metodologiya müxtəlif yanaşmaları özündə birləşdirməlidir. Orta sinfin müəyyənləşdirilməsinə dair bu metodoloji yanaşmaları normativ və relyativist üsullar kimi müəyyənləşdirmək olar.

Sosial-fəlsəfi fikirdə orta sinfin əsas meyarları barədə daimi mübahisələr gedir. Ümumiyyətlə, tədqiqatçılar siniflərin müəyyənləşdirilməsinin iki – obyektiv və subyektiv əlamətlərini ayırırlar. Fərdin cəmiyyətin sosial strukturundakı yerini müəyyənləşdirən obyektiv əlamətlər əmək fəaliyyətinin xarakteri və gəlirlərin miqdarı ilə bağlıdır. Bu meyarlar sırasında daha çox təhsil, peşəkarlıq, vəzifə, gəlir, həyat səviyyəsi, istehlak standartları, maddi və ya intellektual mülkiyyətə sahiblilik, yüksək ixtisaslı əməklə məşğuliyyət, hətta əməksevərlik kimi keyfiyyətlərin adları çəkilir.

Bu yarımfəsildə həmçinin, orta sinfin tərkibində "köhnə orta sinif" və "yeni orta sinif" anlayışları fərqləndirilir. "Köhnə orta sinif" sahibkarları, "yeni orta sinif" isə özündə intellektual əməklə məşğul olan işçiləri birləşdirir. "Köhnə orta sinfin" əsas əlamətini maddi mülkiyyət təşkil edirsə, "yeni orta sinfin" əlamətini isə xüsusi növ kapital - mədəni kapital təşkil edir.

İkinci fəslin **"Orta sinif probleminə konseptual sosial-fəlsəfi yanaşmalar"** adlanan yarımfəsilində qeyd olunur ki, sosial fəlsəfi fikrin bütün inkişaf mərhələlərində orta sinif probleminə dair müxtəlif fikirlərə, yanaşmalara, konsepsiyalara rast gəlinir. Platon öz təlimində sosial bərabərsizlik, ədalətsizlik və sosial iztirabların səbəbini xüsusi mülkiyyətdə görür və həddən artıq varlılıq və yoxsulluğu qəbul etmirdi. O, yazırdı: "Varlılıq və yoxsulluq. Bunlardan biri dəbdəbəyə, tənbəlliyə, yeni adətlərə, o biri isə yeni adətlərdən başqa – alçaqlığa və cinayətkarlığa sürükləyir"[1]. Platondan fərqli olaraq digər antik filosof Aristotel xüsusi mülkiyyətin tərəfdarı idi. O, sosial bərabərsizliyin əsasını mülkiyyət münasibətləri ilə

[1] Platon. Dövlət. Bakı: Təbib, 1999, s. 128

deyil, insanın təbiəti ilə əlaqələndirirdi. Aristotel quldarlığı cəmiyyətin təşkilinin təbii vəziyyəti hesab edərək deyirdi ki, "öz təbiətinə görə biri qul, digəri isə azad insandır". İlk dəfə cəmiyyətə münasibətdə "orta təbəqə" anlayışını da Aristotel işlətməyə başlamışdır. O, yazırdı: "Orta dövlət quruluşu ən yaxşıdır, çünki, yalnız o, daxili qarma-qarışıqlığa aparıb çıxarmır; ortabab vətəndaşların sayı çox olan yerdə vətəndaşlar arasında qruplaşma və ixtilaf daha az olur"[1].

Orta əsrlərdə başqa sahələrdə olduğu kimi, cəmiyyətə münasibətdə də dini-idealist fikirlər hakim idi. Cəmiyyətin müxtəlif siniflərə parçalanmasının, sosial bərabərsizliyin əsl səbəbləri araşdırılmır, bunun ilahi iradənin nəticəsi olduğu qəbul edilirdi (A.Avqustin, A.Foma və b.). Bu dövrdə İslam Şərqində fəlsəfi fikir yüksək inkişaf etmişdir. Azərbaycan filosoflarının da daxil olduğu Şərq peripatetizminin və digər fəlsəfi cərəyanların nümayəndələri (Əbunəsr Fərabi, Saflıq qardaşları, İbn Sina, Bəhmənyar, Əbuhəfs Sührəvərdi, Eynəlqüzat Miyanəçi, Şihabəddin Sührəvərdi, Siracəddin Urməvi, Nəsirəddin Tusi, Əbuhamid Qəzali, İbn Rüşd, İbn Xaldun və b.) öz əsərlərində fəlsəfənin müxtəlif sahələrinə, o cümlədən, sosial fəlsəfəyə dair samballı elmi ideyalar irəli sürmüşlər.

Yeni dövrdə isə bu problemlər daha da aktuallaşdı. XVII-XVIII əsrlərdə bir çox filosoflar öz əsərlərində ictimai münasibətlərə geniş yer verir, cəmiyyətdə ayrı-ayrı siniflərin, təbəqələrin mövcudluğunu, sosial bərabərsizliyi müxtəlif cür izah edirdilər (F.Bekon, T.Hobbs, C.Lokk, B.Spinoza, Ş.L.Monteskye, F.Volter, J.Russo, P.A.Holbax, J.A.Kondorse və b). Klassik alman filosofu F.Hegel konkret şəkildə orta sinfin birbaşa adını çəkməsə də "Hüquq fəlsəfəsi" əsərində onun ayırdığı ümumi zümrə cəmiyyətdə orta təbəqələrin yerinə dair müasir nəzəriyyələrlə üst-üstə düşür. Bunu onun aşağıdakı fikrindən də görmək olar: "Ümumi zümrənin işi, məşğuliyyəti cəmiyyətin ümumi marağını qoruyub saxlamaqdan ibarətdir, odur ki, bu zümrə öz təlabatlarını ya şəxsi varı ilə ya da ondan öz fəaliyyətini həsr etməyi tələb edən dövlətin bu fəaliyyət üçün ona verdiyi qazancla ödəmək üçün bilavasitə əmək sərf etmək zərurətindən azad olmalıdır, belə halda şəxsi maraq ümuminin xeyrinə sərf edilən işdə ödənilmiş olur"[2].

K.Marks və F.Engels orta təbəqəni xırda sənayeçilər, xırda alverçilər, sənətkarlar və kəndlilərdən ibarət silk kimi müəyyənləşdirir. Onlar yazırdılar: "Orta silklər: xırda sənayeçi, xırda alverçi, sənətkar və

---

[1] Aristotel. Politika. Bakı: Bakı Universiteti nəşriyyatı, 1997, s. 146

[2] Hegel G.V. Hüquq fəlsəfəsi. Bakı: Nərgiz nəşriyyatı, 2007, s. 237

kəndli – bunların hamısı burjuaziya ilə ondan ötrü mübarizə edir ki, orta silk olmaq etibarı ilə öz varlığını məhv olmaqdan xilas etsin"[1]. Marksizmin ikiqütblü sinfi cəmiyyət modelində orta sinfə yer yoxdur. Əgər əsas siniflərin sayı ikidirsə, onda orta sinif necə yarana bilər? K.Marksda orta sinif kateqoriyası yoxdur. Bu anlayış yalnız bu və ya digər əsas sinfin (burjuaziya və ya proletariat) aralıq təbəqələrini ifadə etməyə xidmət edir.

Digər alman mütəfəkkiri M.Veber öz təlimində orta sinif probleminə geniş yer vermişdir. Onun fikrincə cəmiyyətin sosial qütblərini təşkil edən pozitiv imtiyazlı sinif olan mülkiyyətçilər və neqativ imtiyazlı sinif olan proletariat arasında – həm xırda mülkiyyətçilər, həm də əmək bazarında öz bilik və bacarığını təklif edən geniş miqyaslı orta siniflər yerləşir. "Orta sinif" termini fiziki əməkdə çalışmayan və varlı olmayan insan qruplarını ifadə edir. M.Veber yazır ki, bu termin ilə bütün növ mülkiyyət formalarına malik və ya müvafiq hazırlığı ilə əmək bazarında rəqabət qabiliyyətlilik xüsusiyyətləri ilə seçilənlər ifadə olunur.

XX əsrin əvvəllərindən etibarən Qərb cəmiyyətlərinin sosial strukturunda mühüm dəyişikliklər baş verdi. Bu, sənayenin inkişafı ilə bağlı idi. Artıq "köhnə orta sinif" və proletariatın həcmi getdikcə azalmağa, zehni əmək nümayəndələrinin istər həcminin, istərsə də əhəmiyyətinin artması müşahidə olunmağa başladı. İdarə və müəssisələrdə zehni əməyə olan tələbat artır, bu vəzifələri icra edənlər isə "yeni orta təbəqə"ni ("ağ yaxalıqlılar") formalaşdırırdılar. Beləliklə, orta sinfin həcminin genişlənməsi nəticəsində burjuaziya və proletariat arasındakı ziddiyyətlərin zəifləməsi və bu problematikanın arxa plana keçməsi baş verdi. Bu dövrdə E.Lederer və Y.Marşak, C.R.Mills yeni orta sinif probleminin tədqiqi ilə məşğul olmuşlar.

XX əsrin ortalarından etibarən sənaye cəhətdən inkişaf etmiş Qərb cəmiyyətlərində ənənəvi fəhlə sinfinin sayı və rolu azalmağa, xidmət sahəsi və əqli əmək nümayəndələrinin həcmi isə artmağa başladı. Bu proseslər özü ilə bərabər SSRİ və Qərb sosial fəlsəfi fikir nümayəndələri arasında orta sinif probleminə dair qızğın elmi mübahisələr gətirdi. Bunu Qərb tədqiqatçıları L.Raysman, E.Rixert, T.Bottomor, P.Druker, C.Bernard, H.Qreyson, S.Lipset, H.Şelski və Sovet tədqiqatçıları V.S.Semyonov, L.Y.Averyanov, T.V.Naumova, V.N.Pimenova və başqalarının əsərlərində görmək olar.

[1] Marks K., Engels F. Seçilmiş əsərləri, 3 cilddə, I cild., Bakı: Azərnəşr, 1978, s. 121

Orta sinif problemi XX əsrin ortalarında daha çox “vahid industrial cəmiyyət” nəzəriyyəsi, XX əsrin sonlarında isə “informasiya cəmiyyəti” konsepsiyası çərçivəsində nəzərdən keçirilmişdir.

İkinci fəslin üçüncü yarımfəsili **“Müasir sosial stratifikasiya sistemində orta sinfin rolu və funksiyaları”** adlanır. Tədqiqatçıların gəldiyi qənaətə görə orta sinfin formalaşmadığı və ya ümumiyyətlə olmadığı cəmiyyət stabil ola bilməz. Onun həcminin genişliyi cəmiyyətdə sabitliyin, sosial-iqtisadi sistemin effektivliyinin, ölkənin iqtisadi, sosial və siyasi institutlarının fəallığının mühüm göstəricisidir[1]. Orta sinif ənənəvi olaraq sosial münasibətlərin nizama salınmasında və vətəndaş cəmiyyətinin qurulmasında vacib rol oynayır. Orta təbəqələrin cəmiyyətdəki mövqeyi onun hərtərəfli (siyasi, iqtisadi, sosial, mədəni) inkişafına birbaşa təsir göstərir. Rusiyalı tədqiqatçı O.M.Mixaylenokun göstərdiyi kimi “orta sinfin siyasi oriyentasiyası siyasi sistemin demokratik təşkilatlanmasına (gəlir formalarıının müxtəlifliyi, seçim, peşə, informasiya azadlığı, siyasi plüralizm, şəxsi həyatın toxunulmazlığı), həmçinin, bazar iqtisadiyyatı və dövlət tənzimlənməsinin balanslaşdırılmış qanuni formasına doğru yönəlməsində ifadə olunur. Orta sinif açıq xarici siyasəti dəstəkləyir və dəyişikliklərin inqilabi yolla həyata keçirilməsinə qarşı çıxır.”[2]. Cəmiyyətin müxtəlif sferalarında orta sinif özünəməxsus rol oynayır.

Dissertasiyanın üçüncü fəsli **“Azərbaycan cəmiyyətində orta sinfin formalaşması və inkişafı prosesinin özünəməxsusluqları”** adlanır. Bu fəsildə ilk növbədə, Azərbaycanda keçid dövrü və sosial strukturda yeni meyllər təhlil olunur, meydana çıxan sosial qrup və təbəqələr öyrənilir. Azərbaycanda orta sinfin öz inkişafında üç inkişaf mərhələsindən keçdiyinin müəyyənləşdirildiyi bu fəsildə “orta sinfin sovet modeli” və “orta sinfin bazar iqtisadi modeli” anlayışlarından istifadə olunur. Sonra, çoxsaylı mənbələr və empirik materiallar əsasında müasir Azərbaycan cəmiyyətində orta sinfin inkişaf tendensiyalarının təhlili həyata keçirilir, orta sinfin inkişafının cəmiyyətimizdə modernləşmənin əsas əlamətlərindən hesab olunduğu vurğulanır. Aydınlaşdırılır ki, orta sinfin inkişafı yeni reallıqlarla, ilk növbədə sosial-iqtisadi münasibətlər sferasının inkişafı, iqtisadiyyatda struktur dəyişiklikləri və effektli sosial siyasətlə birbaşa bağlıdır.

---

[1] Бокарева В.Б. Функции малого бизнеса в развитии среднего класса в России // Экономические и социальные перемены: факты, тенденции, прогноз. М.: 2011, № 5, с.116

[2] Михайленок О.М. Понятие «среднего класса» в современной социально-политической науке // Социально-гуманитарные знания, 2007, № 1, с.117

Bu fəslin **“Azərbaycanda keçid dövrü və sosial strukturda yeni meyllər”** adlanan ilk yarımfəsilində göstərilir ki, planlı iqtisadiyyat və onun effektivliyi haqqında olan illüziyalar özünü doğrultmadı, o nəinki dünya iqtisadiyyatında aparıcı rol oynaya bildi, əksinə, heç öz vətəndaşlarının iqtisadi tələbatını ödəməyə gücü çatmadı. Akademik R.Mehdiyevin göstərdiyi kimi, “tərəqqiyə və iqtisadi rifaha doğru aparan yeganə yol kollektivçilikdən sərbəstliyə, iqtisadiyyatın inzibati-amirlik modelindən bazar modelinə keçid yoludur.”[1]. Bəzən belə fikirlərə rast gəlinir ki, keçid dövründə həyat səviyyəsinin aşağı düşməsi ilə əlaqədar olaraq orta sinfin və ümumiyyətlə bütün bu problematikanın əhəmiyyəti də kölgədə qalmışdır. Lakin qeyd etmək lazımdır ki, ən çətin iqtisadi şəraitdə belə həcm etibarilə kiçik olsa da cəmiyyətdə orta sinfə aid edilə biləcək sosial qrup və təbəqələr mövcud olur. Çünki hər bir cəmiyyətdə maddi sərvətlərin istehlak ierarxiyası mövcuddur. Ən çox təmin olunmuşlar və kasıblar arasında hansısa aralıq qrup mövcud olmalıdır. İqtisadi terminologiyada bu orta istehlak təbəqəsi adlanır. Düzdür, heç bir ciddi iqtisadi araşdırma bu statistik qrupu sinif adlandırmır. Lakin orta istehlak təbəqəsinin mövcudluğu onun sinfə çevrilmə imkanlarının öyrənilməsini şərtləndirir[2]. Bunun üçün isə iqtisadiyyatda struktur dəyişiklikləri, modernləşmə, insanların psixologiyasının dəyişilməsi, onlarda müəyyən dünyagörüşünün yaranması, yeni sosial və siyasi stereotiplərin formalaşması, bir sözlə, keçid dövrünü uğurla başa vurmaq lazımdır.

Həmin fəslin **“Azərbaycanda orta sinfin təşəkkülü xüsusiyyətləri”** adlanan ikinci yarımfəslində Azərbaycanda orta sinfin formalaşma və inkişafı tarixi təhlil edilir və bu sinfin üç inkişaf mərhələsi ayırılır:

1) XIX əsrin sonu, XX əsrin əvvəllərində (1890-1920-ci illər) kapitalist münasibətlərinin, neft sənayesinin inkişafı nəticəsində kiçik və orta sahibkarlıq, milli burjuaziyanın formalaşması əsasında ilk dəfə cəmiyyətimizdə orta sinfin rüşeymlərinin yaranması; 2) XX əsrin 60-80-ci illərində sosial təminat və dövlət mülkiyyətindən asılı olan maddi vəziyyətin yaxşılaşması ilə fərqlənən Azərbaycan sovet orta sinfinin formalaşması; 3) XX əsrin 90-cı illərindən etibarən orta sinfin bazar iqtisadi modelinin formalaşması. Xüsusi mülkiyyətlə bağlı olan bu sinif

---

[1] Mehdiyev R.Ə. Fəlsəfə. Bakı: “Şərq-Qərb”, 2010, s. 332

[2] Умов В.И. Российский средний класс: социальная реальност или политический фантом? // Политические исследования, 1993, № 4, с. 34

postsovet dövrünə təsadüf edir. Dövlət mülkiyyətinin xüsusiləşdirilməsi, ictimai mülkiyyətin əvəzinə ayrı-ayrı kapital növlərinin yaranması orta sinfin bir tipindən – sovet modeli tipindən digərinə - bazar iqtisadi növünə keçidini şərtləndirdi.

Azərbaycan orta sinfinin tarixən üç inkişaf mərhələsindən keçməsini (bazar iqtisadi modeli, sovet modeli, yenidən bazar iqtisadi modelinə dönüş) cəmiyyətdə hakim iqtisadi münasibətlərin və dəyərlərin transformasiyasının nəticəsi hesab edirik.

Bu yarımfəsildə həmçinin, Azərbaycan cəmiyyətinin sosial strukturunun şaquli modelinə görə dörd əsas təbəqə - yuxarı, orta, baza, aşağı təbəqələr və bu təbəqələrə daxil olmayan "anderklas" və ya "sosial alt" səviyyə müəyyənləşdirilir və təhlil olunur.

Üçüncü fəslin sonuncu yarımfəsili **"Müasir Azərbaycan cəmiyyətində orta sinfin inkişaf tendensiyaları"** adlanır. Burada ölkəmizdə orta sinfin formalaşması perspektivləri araşdırılır. Bunun daha çox səmərəli sosial–iqtisadi sistemin formalaşmasından və eləcə də, əhalinin yeni həyat şərtlərinə müvəffəqiyyətlə adaptasiyasından asılı olduğu göstərilir. İnkaredilməz həqiqətdir ki, hər bir ölkənin iqtisadi-siyasi durumunun sabitliyi onun orta sinfinin vəziyyəti ilə ölçülür. Məhz bu sinif cəmiyyətdə balans yaradaraq kəskin təbəqələşməni, sosial gərginliyi aradan qaldırır və ümumi inkişafda harmoniya yaradır. Cəmiyyətimizdə sosial, iqtisadi sahədə həyata keçirilən bütün islahatların əsas məqsədi də elə orta sinfin, azad sahibkarlığın mövqelərinin möhkəmləndirilməsindən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sahədə dövlətin qarşısında duran əsas məqsədi belə müəyyənləşdirir: "Biz çalışmalıyıq ki, maksimum dərəcədə bütün imkanlardan istifadə edək ki, Azərbaycanda yaranan sahibkarlar sinfi daha da möhkəmlənsin, orta təbəqə inkişaf etsin, yoxsulluğun səviyyəsi aşağı düşsün"[1]. Orta sinfin formalaşması ilk növbədə, kiçik və orta sahibkarlıq sektorunun inkişafı ilə bağlıdır. Bu baxımdan müxtəlif illərdə qəbul edilən qanunlar, həyata keçirilən iqtisadi islahatlar təqdirəlayiqdir. Respublikamızda sahibkarlığın inkişafına yönəldilmiş tədbirlərin sistemliliyinin təmin olunması bu sahədə qəbul edilmiş dövlət proqramları ilə bağlıdır. "Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanun"undan əlavə 1997-ci ildə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997—2000-ci illər) Dövlət Proqramı" təsdiqlənmişdir. 2002-ci ildə təsdiq olunmuş

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. Respublika qəz., Bakı, 2007, 23 yanvar, s.

“Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (2002-2005-ci illər) Dövlət Proqramı” özəl sektorun inkişafını stimullaşdıran tədbirlərin davamı kimi mühüm əhəmiyyət kəsb etmiş, dövrün bir sıra reallıqları ilə şərtlənmişdir. Cəmiyyət üçün xarakterik olan bir sıra problemlərin, o cümlədən orta sinfin formalaşması və inkişafına mənfi təsir göstərən halların aradan qaldırılması məqsədilə 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı" qəbul olunmuş, qarşıdakı dövr üçün əsas fəaliyyət prioritetləri müəyyənləşdirilmişdir[1]. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”, eləcə də “Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı” çərçivəsində başlanmış işlərin davam etdirilməsi məqsədilə “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” hazırlanmışdır[2]. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” isə bütün respublikanı əhatə etməklə bu sahədəki tədbirlərin uğurla həyata keçirilməsini təmin edir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi isə ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusi ilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarət olacaqdır[3]. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il Sərəncamı ilə “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının hazırlanması və buradan irəli gələn məsələlərin həlli istiqamətində işlərin aparılması da təqdirəlayiq hesab olunmalıdır. Belə bir konsepsiyanın hazırlanması zərurəti ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyması ilə bağlıdır. Adı çəkilən konsepsiyada cəmiyyətimizdə orta sinfin inkişafı məsələlərinə xüsusi diqqət yetirilir: “bu konsepsiya çərçivəsində Azərbaycanda “mütləq yoxsulluq” problemi yenə də daim diqqət mərkəzində olacaqdır. Bununla yanaşı ölkədə əhalinin orta təbəqəsinin

---

[1] Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Azərbaycan qəz., Bakı, 2004, 12 fevral, s.

[2] Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər). Azərbaycan qəz., Bakı, 2009, 15 aprel, s.

[3] Azərbaycan Respublikası regionlarının 2014-2018 – ci illərdə sosial – iqtisadi inkişafı Dövlət Proqramı // http://www.mdi.gov.az/files/uploader/iqtisadi_inkisaf. doc

genişlənməsi, həmin təbəqənin rolunun gücləndirilməsi başlıca məqsədlərdən biridir”[1].

2015-ci ilin noyabrın 1-dən etibarən “Sahibkarlıq sahəsində aparılan yoxlamaların iki il müddətində dayandırılması haqqında Azərbaycan Respublikasının Qanunu”nun qəbul edilməsi orta sinfin inkişaf perspektivi baxımından əhəmiyyətlidir. Bu, sahibkarlıq mühitinin inkişafında süni maneələrin aradan qaldırılması və xüsusən, kiçik və orta sahibkarlıq subyektlərinin genişlənməsi üçün əvəzsiz rol oynayacaqdır. Bundan başqa, 2016-cı ildə “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklərin edilməsi və son iki ildə bu sahədə qəbul edilmiş qanun və sərəncamlar postneft dövründə qeyri-neft sektorunun inkişafı, sahibkarlıq üçün əlverişli mühitin yaradılması və beləliklə, orta sinif nümayəndələrinin özəl sektorun müxtəlif sahələrinində təmsil olunması baxımından olduqca əhəmiyyətlidir.

İşin **“Nəticə”** hissəsində aparılmış tədqiqata yekun vurulur, ümumiləşdirmələr edilir və əsas müddəalar göstərilir, təklif və tövsiyyələr irəli sürülür.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**

1. Azərbaycan cəmiyyətində keçid dövrü və orta sinfin formalaşması perspektivləri // Dünyaya baxış (elmi-nəzəri jurnal). Bakı, 2008, № 4, səh. 50-56.

2. Cəmiyyətin sosial strukturunda orta sinfin yeri və rolu / Aspirantların və Gənc Tədqiqatçıların XIII Respublika Elmi Konfransının Materialları, Bakı, 2009, səh. 185-186.

3. Orta sinif: formalaşması, inkişafı, perspektivləri // Bakı Universitetinin Xəbərləri (sosial-siyasi elmlər seriyası), 2009, № 1, səh. 125-132.

4. Orta təbəqələr cəmiyyətdə sabitliyin təminatçısı kimi / Bakı Dövlət Universitetinin 90 illik Yubileyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın Materialları ( Humanitar elmlər). Bakı, 2009, səh. 368-369

5. Azərbaycanda sosial strukturun transformasiyası və orta təbəqə problemi / Aspirantların və Gənc Tədqiqatçıların XIV Respublika Elmi Konfransının Materialları. Bakı, 2010, səh. 113-115.

---

[1] “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası. http://www.president.az/files/future_az.pdf, s. 12

6. Cəmiyyətin sosial strukturuna dair marksizm təlimi və müasir stratifikasiya nəzəriyyəsi // Fəlsəfə və sosial-siyasi elmlər, 2010, № 1, səh. 85-97.

7. Orta sinif anlayışı və inkişaf tarixi / Doktorantların və Gənc tədqiqatçıların XV Respublika Elmi Konfransının Materialları. Bakı, 2011, səh. 40-42.

8. Некоторые аспекты проблемы среднего класса // Сучасна Українська Полiтика, Киiв 2011, Выпуск 24, стр. 241-249

9. Ценности среднего класса в обществе / «Глобализация как этап развития мирового сообщества». Материалы международной научно-практической конференции. Пенза, 2011, стр. 87-90

10. Orta sinif anlayışı - müəyyənləşdirilməsi, metodologiya və kəmiyyət göstəriciləri // Bakı Slavyan Universitetinin Elmi Xəbərləri (ictimai-siyasi elmlər seriyası), Bakı, 2011, № 2, səh. 50-56.

11. Azərbaycanda orta sinif: tarixi, mövcud durumu və inkişaf perspektivləri // Mədəniyyət dünyası, XXII buraxılış, Bakı, 2011, səh. 89-93.

12. Orta sinfin əsas xüsusiyyətləri, tərkibi və əhəmiyyəti / Doktorantların və Gənc tədqiqatçıların XVI Respublika Elmi Konfransının Materialları. Bakı, 2012, səh. 437-440.

13. Orta sinif probleminə konseptual sosial-fəlsəfi yanaşmalar // Mədəniyyət dünyası, XXIV buraxılış, Bakı, 2012, səh. 65-70.

14. Orta sinfin formalaşmasının maddi-iqtisadi amilləri / "Qloballaşma şəraitində sosial problemlərin həlli yolları" mövzusunda Gənc Tədqiqatçıların Respublika Elmi-Praktik Konfransının materialları, Bakı, 2013, səh. 7-11.

15. Orta sinif vətəndaş cəmiyyətinin mühüm elementi kimi // Bakı Slavyan Universitetinin Elmi Xəbərləri (ictimai-siyasi elmlər seriyası), 2013, № 1, səh. 154-164.

16. Toplumun gelişiminde orta sınıfın önemi // Journal of Qafqaz University, 2013, № 1, səh. 93-99.

17. Сущность и функции среднего класса в современном обществе // Гiлея, Киiв 2014, Випуск 89 (№ 10), стр. 192-196.

18. Azərbaycan respublikasında orta sinif cəmiyyətin modernləşməsinin subyekti kimi // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri (ictimai elmlər seriyası), Naxçıvan 2015, № 2 (67), səh. 113-119

**Осман Юсиф оглы Гаджиев**

## Проблема среднего класса как объект социальной философии

## РЕЗЮМЕ

Диссертация посвящена комплексному и всестороннему исследованию социально-философского аспекта проблемы среднего класса. Именно социально-философское исследование дает возможность изучения среднего класса в контексте, отличающихся разнообразием социальных факторов и условий, общественных отношений.

Первая глава называется «Основы философско-теоретического исследования социальной структуры общества и социальной стратификации. В этой главе широко исследуются классы и классовые отношения в обществе, выявляются различия в понятиях эмпирической и теоретической моделей социальной структуры. Здесь представлен перечень основных категорий для социально-философского исследования среднего класса и определяются такие понятия как социальная структура, социальная деятельность, социальное пространство, социальные интересы, классы, социальная стратификация, прослойка, собственность.

Вторая глава называется «Место, роль и функции среднего класса в социальной системе». В этой главе раскрывается сущность понятия среднего класса, как единой социальной группы, определяются слои населения, образующие социальный состав среднего класса.

Третья глава исследовательской работы называется «Особенности формирования и процесса развития среднего класса в азербайджанском обществе». Здесь, в первую очередь, рассматриваются основные направления изменения социальной структуры Азербайджана в переходный период, изучаются вновь образующиеся социальные группы и прослойки.

В «Заключении» даются обобщения и выводы по исследовательской работе и конкретные предложения по дальнейшему развитию среднего класса в азербайджанском обществе.

**Osman Yusif oghlu Hajıyev**

## The problem of middle class as the object of social philosophy

### Abstract

The thesis is devoted to integrated and all-round study of middle class problem from the social philosophy aspect. It is the social philosophical analysis that allows studying the middle class in the context of social relations characterized by a number of social factors and conditions.

The first chapter is entitled as "philosophical and theoretical aspects of the analysis of social structure and social stratification of the society". In this chapter, class and class relations in the society are extensively analyzed, empirical and theoretical model concepts of the social structure are differentiated. Here the categorical tool for studying the middle class in terms of social philosophical analysis is formed and notions of social structure, social activity, social location, social interests, class, social stratification, stratum, property are widely analyzed.

The second chapter is entitled as "middle class, its place, role and functions in social system". In this chapter, the essence of the notion of middle class is clarified, this class is regarded as a single social union, groups and strata that form the social composition of the middle class are identified. The place, role and functions of the middle class in modern social stratification system are studied, this class is considered as a major force stimulating the development in the society and social base of the free market economy and political democracy.

The third chapter of the research work is entitled as "Peculiarities of the middle class formation and development process in Azerbaijani society". Here, first of all, the transition period and new tendencies in social structure in Azerbaijan are analyzed; the emerging social groups and strata are studied.

In the "Conclusion", generalization is conducted in relation to research work and suggestions are put forward.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**Осман Юсиф оглы Гаджиев**

# ПРОБЛЕМА СРЕДНЕГО КЛАССА КАК ОБЬЕКТ СОЦИАЛЬНОЙ ФИЛОСОФИИ

Специальност: 7207.01 – социальная философия

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора философии по философии

**БАКУ – 2016**